*Azərbaycan dili və ədəbiyyat tədrisi*
Xüsusi buraxılış / 2025 May / 64–75
https://doi.org/10.48445/u6287-0919-7129-j

# Dil fikrin libası və ədəbiyyatın yaşadığı dünyadır

***Rəhilə Hümmətova* [1]**

**XÜLASƏ**

*Dil insanın duyğu və düşüncələrini ifadə edən sirli-sehrli bir vasitə, insanın ünsiyyətinə, təfəkkürünün formalaşmasına xidmət edən işarələr toplusudur. Dil insanın bütün fəaliyyət sahəsini əhatə edir. Onun köməyi ilə dünya dərk edilir və insan öz milli kimliyini formalaşdırır. Azərbaycan dili fonetik sisteminin səlisliyi, lüğət tərkibinin zənginliyi, üslub zərifliyi, ifadə imkanları, struktur-semantik bütövlüyü, qrammatik struktur sabitliyi ilə seçilir. "Əqlin intellektual instinkti", "incəsənət" adlandırılan və yalnız insana məxsus olan bu aləmdə xalq ruhunun zənginliyi, daxili dünyası, yaşanmış maddi-tarixi aləmi, yurd, el-oba məhəbbəti, humanizmi, elmi-fəlsəfi təfəkkürünün və poetik düşüncələrinin qüdrəti öz əksini tapır. Azərbaycan dili geniş ifadə imkanlarına malik olmaqla fikir və duyğuların sərbəst ifadəsinə şərait yaradan zəngin bir dildir. Şirin, kövrək laylası ilə ruhumuza, qanımıza, canımıza hoparaq milli kimliyimizi formalaşdıran doğma dilimizdir Azərbaycan dili! Bu dil zaman keçdikcə, minilliklər arxada qaldıqca keçmişlə gələcəyi qovuşduran polad körpüyə çevrilir. Dil xalqın təfəkkürünün güzgüsüdür. Hər bir millətin intellektual səviyyəsi genetik kod kimi onun dilində, yaddaşında məskən salır. Məqalədə müəllifin, eyni zamanda klassiklərin, elm və dövlət xadimlərinin dil haqqında fikir və düşüncələri, həmçinin dilin funksiyaları öz əksini tapmışdır.*

**AÇAR SÖZLƏR**

*dil, milli kimlik, dilin emotiv funksiyaları*

**MƏQALƏ TARİXÇƏSİ**

Göndərilib: 24.02.2025
Qəbul edilib: 12.04.2025

[1] Filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0000-0003-2521-6361 | rahilahummetova@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teaching of Azerbaijani Language and Literature*
Special Issue / 2025 May / 64–75
https://doi.org/10.48445/u6287-0919-7129-j

# Language is the Garment of Thought and the World Where Literature Lives

***Rahila Hummatova*** [1]

**ABSTRACT**
*Language is a mysterious and magical tool that expresses human feelings and thoughts, a set of signs that serve human communication and the formation of thinking. Language covers the entire sphere of human activity. With its help, the world is understood and a person forms his national identity. The Azerbaijani language is distinguished by the fluency of its phonetic system, the richness of its vocabulary, the elegance and beauty of its style, expressive possibilities, structural-semantic integrity, and grammatical structural stability. In this world called the "intellectual instinct of the mind", "art" and belonging only to humans, the richness of the people's spirit, their inner world, the material-historical world experienced, love for the homeland, people and villages, humanism, the power of scientific-philosophical thinking and poetic thoughts are reflected. The Azerbaijani language is a rich language that creates conditions for the free expression of thoughts and feelings, having wide expressive possibilities. The Azerbaijani language is our native language, which has absorbed our soul, blood, and soul and has formed our national identity! This language, over time, as millennia pass, becomes a steel bridge connecting the past and the future. Language is a mirror of the people's thinking. The intellectual level of each nation, like a genetic code, resides in its language and memory. The article reflects the thoughts and ideas of the author, as well as classics, scientists and statesmen about language, as well as the functions of language.*

**KEYWORDS**
*language, national identity, emotive functions of language*

**ARTICLE HISTORY**
Received: 24.02.2025
Accepted: 12.04.2025

[1] Doctor of Philosophy in Philology, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan.
https://orcid.org/0000-0003-2521-6361 | rahilahummetova@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Azərbaycan dili dünyanın qədim və zəngin tarixə malik, başqa dillərə asanlıqla tərcümə edilə bilən dillərindəndir. Minilliklərin sərt sınaqlarından keçərək formalaşan və tarix boyu mövcudluğunu qoruyan Azərbaycan dili xalqımızın ən böyük milli-mənəvi sərvəti, dünya azərbaycanlılarını birləşdirən sarsılmaz təməl, müstəqilliyimizin və dövlətçiliyimizin əsas atributlarından biri, milli kimliyimizin ayrılmaz hissəsidir. Xalqın yaratdığı və minilliklər ərzində qoruyub inkişaf etdirərək gələcək nəsillərə çatdırdığı Azərbaycan dili ana laylası qədər şirin, bulaqların zümzüməsi kimi həzin, dağ çaylarının səsi kimi coşqun, qılınc kimi kəskindir.

Hər bir xalqın dili onun mədəniyyətidir. Əgər mədəniyyət bir ev kimi təsəvvür olunarsa, dil həm o evin, həm də bütün otaqların açar sayılar. Dilsiz insan evsiz və şəxsiyyətsiz qalmış bir varlıq kimidir.

Azərbaycan dili Altay dilləri ailəsinin Türk dilləri qrupunun oğuz-səlcuq yarımqrupuna daxildir. Bu qrup Azərbaycan dili ilə yanaşı, özündə türk, türkmən, qaqauz dillərini də birləşdirir. Ana dilimiz, 12 noyabr 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının dövlət dili kimi təsdiq edilib.

Tədqiqat işinin mövzusu, milli kimliyin, cəmiyyətin varlığının, təşəkkül və inkişafının təməli sayılan Azərbaycan dilinin təfəkkürün ifadə vasitəsi kimi dəyərləndirilməsi məsələsidir.

**Tədqiqatın əsas sualları**

1. Dili necə xarakterizə edilir?
2. Dilin funksiyası nədir?
3. Dili nə üçün "əqlin intellektual instinkti" və "incəsənət" adlandırırlar?
4. Dil bədii təfəkkürdə necə ifadə edilib?

**Tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti**

Məlumdur ki, dili xalq yaradır, filoloqlar isə onu linqvistik müstəvidə kəşf edir, təhlillər aparır, dilin sistem olduğunu və bu sistemi yaradan dil vahidlərinin müəyyən qanunauyğunluqlar əsasında birləşdiyini sübut edirlər. Şairlər, yazıçılar isə dilin ifadə vasitələri və imkanlarından istifadə edərək əsrarəngiz bir dünya, ecazkar söz sənəti yaradırlar. Mövzuya bu cür yanaşma onun elmi yeniliyi kimi qəbul edilə bilər. Tədqiqat işindən dili sevən hər bir kəs – müəllimlər, dissertantlar və tələbələr istifadə edə bilərlər.

## Metodlar

Mövzuda qoyulan məqsədin daha aydın ifadəsi üçün düzgün metoddan istifadə etmək çox əhəmiyyətlidir. Çünki metod hədəfə çatmaq üçün önəmli vasitədir. Məqalədə fikir, müşahidə, təsviri və areal metodlarından istifadə edilmişdir.

## Nəticələr

Mövzunu təhlil süzgəcindən keçirərkən belə nəticəyə gəlirik ki, dil insanı dəyərləndirmək, onun kimliyini dərk etmək üçün əsas vasitədir. Bu ecazkar qabiliyyətdə xalq ruhunun incəlikləri, onun maddi və mənəvi dünyası, vətən sevgisi, insana məhəbbət və mərhəməti, elmi-fəlsəfi, ictimai-siyasi təfəkkürü, poetik düşüncələri əks olunmuşdur.

## Müzakirə

Dil insanın ünsiyyətinə, təfəkkürünə, onun formalaşması və ifadəsinə, fikir mübadiləsinə xidmət edən işarələr sistemidir. İnsana xas olan bu qeyri-adi qabiliyyət onun bütün fəaliyyət sahəsini əhatə edir. Dilin köməyi ilə dünya dərk edilir, şəxsiyyətin özünü dərk etməsi təzahür olunur. “Dil xalqın tarixi ilə üzvi surətdə əlaqədar olur, çünki dil insan cəmiyyəti daxilində təşəkkül tapır. Elə buna görə də dilin taleyi onu yaradan xalqın taleyi ilə bağlı olur” (Qurbanov, 2003, s. 11). “Dil xalqın ruhunun təzahürüdür, dil onun ruhu, ruh isə onun dilidir” (V. Humboldt).

Dilimiz fonetik sisteminin səlisliyi, lüğət tərkibinin zənginliyi, üslubunun zərifliyi və gözəlliyi, ifadə imkanları, struktur-semantik bütövlüyü, qrammatik strukturunun sabitliyi ilə seçilir. “Əqlin intellektual instinkti” (V. Humboldt), “incəsənət” (U. C. Entunstl) adlandırılan və insana xas olan bu ecazkar qabiliyyətdə xalq ruhunun incəliklərinin, onun maddi və mənəvi dünyasının, arzu və istəklərinin, həyat və məişətinin, dünyagörüşünün, vətən sevgisinin, insana, insanlığa məhəbbət və mərhəmətinin, elmi-fəlsəfi, ictimai-siyasi təfəkkürünün, poetik düşüncələrinin əks olunduğunu görürük.

Şirin, kövrək layla səsidir bu dil! Bu səslə ruhumuza, qanımıza hoparaq milli kimliyimizi formalaşdıran doğma dilimiz! Bu dil zaman keçdikcə, minilliklər arxada qaldıqca keçmişlə gələcəyi qovuşduran polad körpüyə çevrilir. Bu dil dağdan ağır ağsaqqallarımızın, ağzı dualı ağbirçəklərimizin, beşik yırğalayan gəlinlərimizin bayatı, nəğmə, oxşama səsidir:

Bülbül qonar güllərə,
Qurban şirin dillərə.
Hamı əl-ələ versə,
Yağı neylər ellərə (Bayatı).

Bu dil "Qız anadan görməyincə öyüd almaz! Oğul atadan görməyincə süfrə yaymaz! Yapaqlı gökçə çəmən güzə qalmaz! Yapa-yapa qarlar yağsa, yaza qalmaz!" – deyərək boy boylayan, soy soylayan Dədəm Qorqudun; "Çal qılıncını, ağam Qazan, yetdim!" sədaları ilə yeri, göyü titrədən oğuz bahadırlarının; "güz almasına bənzər al yanaqlı, qoşa badam sığmayan dar ağızlı, qar üzərinə qan dammış kimi al yanaqlı" oğuz xatunlarının; "Necəsən, gəl, ey yüzü ağum mənim! Sən əritdin odlara yağum mənim!" – söyləyən Həsənoğlunun; "Sən bu nişanla bil məni, bil ki, nişana sığmazam!" – hayqıran Nəsiminin; "Gövhərin keçməyən yerdə satma, qardaş, kərəm eylə! Ləl daşını çay daşına qatma, qardaş, kərəm eylə!" – nəsihəti ilə sözü ən qiymətli ləl-cəvahirata, gövhərə bənzədən Xətainin; "Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım!" – fəryadı ilə fələkləri yandıran Füzulinin; "Kür qırağının əcəb seyrəngahı var, Yaşılbaş sonası, hayıf ki, yoxdur!" – təəssüfünü dilə gətirən Vaqifin; "Gözəllər çıxıbdır seyranə, gəlsin!" təvəqqesini səsləndirən Zakirin; "Daş qəlbli insanları neylərdin, ilahi?!" ritorik sualı ilə üsyan edən Sabirin; "Bilinməyir yaşın sənin, Nələr çəkmiş başın sənin?!" – düşüncələri ilə Azərbaycanın keçmişini, bu gününü dilə gətirən S. Vurğunun dilidir!

M. F. Axundovun, C. Məmmədquluzadənin, "Molla Nəsrəddin"in, Ü. Hacıbəyovun, Ə. Haqverdiyevin, N. Vəzirovun, Ə. Cavadın, M. Müşfiqin, S. Rüstəmin, R. Rzanın, N. Xəzrinin, O. Sarıvəllinin, M. Arazın, N. Həsənzadənin, B. Vahabzadənin, Xəlil Rza Ulutürkün, H. Əliyevin dilidir bu ecazkar dil! Dilimizin şirinliyinə, kövrəkliyinə, coşqunluğuna, hayqırtısına nənələrin laylası, babaların nəfəsi, igidlərin nərəsi, millətimizin saflığı, təbiətimizin əlvanlığı, coğrafiyamızın istiliyi hopub. Məhz bu səbəblər dilimizə emosionallıq, ekspressivlik, əzəmət, ehtişam, yüksək elmi-fəlsəfi, diplomatik fikirləri ifadə etmək imkanı verir. Dilə məhəbbət ailədən, anadan başlayır. Ana nə qədər müqəddəs sayılırsa, dil də o qədər əziz tutulur. Ona görə də dilimizə "Ana dili" deyilir. Bir millətin maddi-mənəvi mülkiyyətini məhv etsələr, o, dilinin sayəsində yaşaya bilər, lakin dilini alsalar, o millət yaşaya bilməz, məhv olar. Qəlbində vətən sevgisi olan hər bir kəs öz dilinə hörmətlə yanaşmalı, onu göz bəbəyi kimi qorumalı və sarsılmaz qala kimi möhkəmləndirməlidir.

Bu dildədir yüz abidə, min abidə,
Xilafəti parçalayan Babəkimin qəzəbi də.
Məhv olarsa, bir gün bu dil,
Göygöl onda Göygöl deyil!
Qoşqar onda Qoşqar deyil!
Öz dilini sən qala bil!

Qərbə, şərqə işıq salan Füzulini sən qala bil!
Sağdır dilim, demək, sağdır şərafətim, ləyaqətim.
Sağdır, demək, milyard yaşlı məmləkətim...
Zamandan zamana, əsrdən əsrə,
Vuruşla yol gələn davalı dilim!
Babək qılıncının davamı dilim!
(X. R. Ulutürk)

Öz dilinə, millətinə, tarixinə, ədəbiyyatına xüsusi önəm verən hər bir kəs dahi söz ustadının misralarının semantik yükünü damarlarında axan qanla, aldığı nəfəslə birləşdirər, ayaq basdığı Vətən torpağına, onun başı üstə vüqarla dalğalanıb yurdumuzun – Azərbaycanımızın əbədiyyətə qədər var olacağını hayqıran bayrağımıza, Şərqə, Qərbə işıq saçan Füzuliyə, "türkün dili kimi sevgili dil ola bilməz!" söyləyən Şəhriyara, bütün türk dünyasının şairi sayılan Bəxtiyara olan sevgisini doğma ana dilində çatdırar. Azərbaycan ədəbiyyatının məşhur simaları, klassik şairlərimiz hər zaman türk olmaları ilə fəxr etmiş, "türk dilinin ecazkarlığını poetik şəkildə canlandırmışlar" (Tanrıverdi, 2008, s. 8).

Oğuz xanı xatununa bu dildə öz sevgisini söyləmiş və onun poetik tablosunu çəkmişdir.

Bəri gəlgil, başım baxtı, evim taxtı,
Evdən çıxıb yürüyəndə səlvi boylum!
Topuğunda sarmaşanda qara saçlum!
Qurulu yaya bənzər çatma qaşlum!
Qoşa badam sığmayan dar ağızlum!
Güz almasına bənzər al yanaqlum!
Qadınım, dirəyim, döləyim!

Azərbaycan ədəbiyyatında ilk poema müəllifi kimi tarixə düşən Ə. Xaqani yazırdı: *Torke – əcəmi, vəli dəriquy, Yəlavac şenas o tanrıcuy* (Əcəm türküdür, ancaq dəricə (yeni fars dilində) şeir deyir. Yalavacı (peyğəmbəri) tanıyan və tanrını axtarandır).

Digər nümunələri də nəzərdən keçirək:

Bu dünyada bir haqq divan,
O dünyada cənnətməkan,
Qoy var olsun türki zəban,
Şah Xətai, Şah Xətai
(Qurbani).

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzm kim,
Nəzmi-nazim türk ləfzilə ikən düşvar olur
(M. Füzuli).

M. Füzuli doğma ana dilində ərəb oğlu Məcnunu danışdırdı, onun dərdini, sonsuz sevgisini, Leylinin hüquqsuzluğunu, kədər və iztirabını, bir qul kimi alınıb-satılmasını sözün qüdrəti ilə dünyaya çatdırdı, ürəklərə yol açdı. Dünya Füzulinin simasında onun mənsub olduğu xalqın ağıl və hikmətini öyrəndi:

Ya rəb, bəlayi-eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi-eşqdən etmə cüda məni.
Az eyləmə inayətini əhli-dərddən,
Yəni ki çox bəlalara qıl mübtəla məni...
Mən gövhərəm, özgələr xiridar,
Məndə deyil ixtiyari-bazar.
Dövran ki məni məzadə saldı,
Bilməm, satan kim, alam kim oldu
(M. Füzuli).

“Füzuli türk oğlu olmağına binaən öz ana dilini sevib də ona rövnəq verməyi baş vəzifələrindən biri hesab edirmiş. ...Həqiqətdə demək olar ki, türk dilinə rövnəq verən və onu xar və xaşakdan təmizləyib bir göyçək və səfalı çəmənə bənzədən Füzuli olubdur, bununla biz türklərin üstə ümumən və Azərbaycan türklərinin boynuna bir minnət qoyubdur. ...Füzuli türklər ədəbiyyatında “Ustadi-şüara ləqəbini alıbdır və bu zati-şərif məzkur ləqəbdən səva Azərbaycan vilayətində “Ustadül-məkatib” ismilə dəxi şöhrətlənmişdir” (Köçərli, 1978).

M. Şəhriyar və B. Vahabzadəni birləşdirən ortaq cəhət doğma dilə sonsuz sevgi idi.

Türkün dilitək sevgili, istəkli dil olmaz,
Ayrı dilə qatsan, bu əsil dil əsil olmaz.
Öz ləfzini farsa, ərəbə qatmasa şair,
Şerin oxuyanlar, eşidənlər kəsil olmaz
(M. Şəhriyar).

Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil bir-birimizə əhdi-peymanımızdır.
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə miras verdiyi
Qiymətli xəzinədir...onu gözlərimiztək
Qoruyub, nəsillərə biz də hədiyyə verək
(B. Vahabzadə).

“Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilməz... Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tarixini bilməyəcək; onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır”. “İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımızın ulu babalardan miras qalan bu ən qiymətli milli sərvətini hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir”. “Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm” (Heydər Əliyev).

Azərbaycan Respublikasının rəsmi dövlət dili olan Azərbaycan dili Konstitusiyamızda qanunvericilik yolu ilə təsbit edilmişdir. Konstitusiyada Azərbaycan dilinin statusu, hüquqları, azad inkişafı və geniş istifadə əsasları müəyyən edilmişdir. Dövlət orqanlarında, mətbuatda, təhsil müəssisələrində və digər sahələrdə bütün işlər Azərbaycan ədəbi dilində həyata keçirilir.

Dil bir neçə vəzifə yerinə yetirir:

- fikrin formalaşmasında iştirak edir. Hər hansı bir fikir ancaq dil vahidləri vasitəsilə aydın və dəqiq formalaşır;
- insan fikrini ifadə etməkdə, bununla cəmiyyət üzvləri arasında fikir mübadiləsi yaratmaqda xüsusi rol oynayır.

Fikir mübadiləsi bir neçə istiqamətdə olur:

a) insan dil vasitəsilə fikrini ifadə edir;
b) başqasının fikirlərinİ öyrənir;
c) qarşılıqlı fikri anlaşma imkanı əldə edir (Qurbanov, 2004).

A. Qurbanov dilin funksiyalarını aşağıdakı qayda üzrə qruplaşdırır:

1. İctimai-siyasi təcrübəni yaratmaq, ötürmək və mənimsəmək vasitəsi rolunu oynayır.
2. Kommunikasiya rolunda çıxış edir.
3. İntellektual fəaliyyət vasitəsi olur.

Dilin funksiyaları nitq prosesinin istiqamətini müəyyənləşdirir. Onun digər funksiyalarının ümumi mənzərəsini aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

**Dilin emotiv funksiyası**

Danışanın, yaxud yazanın hiss və duyğularının təsvir və tərənnüm etdiyi obyektə, əşya və hadisəyə, onun yaratdığı poetik təəssürata münasibəti emotiv funksiyasının əsasını təşkil edir. "Dil fikirləşmə, anlaşma vasitəsi olmaqla yanaşı, həm də fikri təcəssüm etdirmə alətidir. Dilin fikri təcəssüm etdirməsi onun ekspressiv vəzifəsi adlanır. Dilin bu vəzifəsinə yalnız fikrin təcəssüm olunması deyil, həm də dillə insan emosiyasının ifadə edilməsi də daxildir (Qurbanov, 2004).

İstər folklor, istər klassik, istərsə də müasir ədəbiyyatımızda dilin emotiv funksiyasına aid yüzlərlə nümunələr göstərmək mümkündür:

Beyrək gedəli Bambam təpə başına çıxdınmı, qız?!
Qanrılıb dörd yanına baxdınmı, qız?!
Qarğı kimi qara saçın yoldunmu, qız?!
Qara gözdən acı yaşı tökdünmü, qız?!
Güz alması kimi al yanağın yırtdınmı, qız?!
Gələnilə gedəndən Beyrək xəbərin sordunmu, qız?!

Bədii nitqdə ekspressivlik və emosionallıq ən təsirli üslubi vasitələrdəndir. Poetik nitqin emotiv funksiyası müxtəlif bədii materiallarla gerçəkləşir. Bu cür emotiv funksiya, hər şeydən əvvəl, danışanın, yazanın dilin ifadə imkanlarından ustalıqla istifadə etməsindən qaynaqlanır. Dilin emotiv funksiyasının səciyyəvi cəhətləri arasında emosional leksika, xüsusən də kiçiltmə bildirən sözdüzəldici vasitələr aparıcı mövqeyə malikdir. Bədii ədəbiyyatımızda həmin vasitələrdən geniş istifadə olunmuşdur. Məsələn: Dilin üçün öləyin, *gəlinciyim!* Yoluna qurban olayın, *gəlinciyim*! Açuq-açuq meydana bənzər sənin *alıncuğun,* Eki şəbçırağa bənzər sənin *gözcigəzin*... ("Kitabi-Dədə Qorqud")

**Dilin apelyativ funksiyası**

Dilin bu funksiyası dinləyiciyə müraciət etməyə və onu nitqi anlamağa təhriketmə məqsədinə xidmət edir.

Gözəl, sənə məlum olsun,
Alışıban-yanıram mən.
Ala gözlər süzüləndə
Canımdan usanıram mən
(A. Ələsgər).

Dilin bu funksiyasında "danışan dinləyiciyə informasiyanı birdən-birə çatdırmır, bəlkə, dinləyicini informasiyanı dərk etmək üçün hazırlayır, onun diqqətini özünə cəlb edir".

**Dilin konativ funksiyası**

Dinləyənlə (oxuyanla) bağlı olan bu funksiya üçün ən tipik hal imperativlərin (insanlara, heyvanlara, quşlara müraciətlə işlənən çağırış, müraciət, əmr, təhrik bildirən sözlər) işlənməsidir. Feilin əmr şəklində, xüsusən də II şəxsin təkində təhriketmə məzmunu daha qabarıqdır. Bu mənada dilin konativ funksiyası daha çox feilin əmr şəkli kontekstində tədqiq edilməli və onun ən spesifik xüsusiyyətləri müəyyənləşdirilməlidir. Məlum olduğu kimi, feilin əmr forması yalnız qəti əmr deyil, həmçinin öyüd-nəsihət, yalvarış, xahiş, arzu, istək, məsləhət, qarğış, alqış və s. bildirir.

Qazılıq dağı, axar sənin suların,
Axar ikən axmaz olsun!
Bitər sənin otların, Qazılıq dağı,
Bitərkən bitməz olsun!
("Kitabi-Dədə Qorqud")

Bir məclisə varsan, özünü öymə,
Şeytana bac verib, kimsəni söymə,
Əgər qüvvətlisən, kasıbı döymə,
Demə, var qüvvətim, qolum yaxşıdır
(X. Qasım).

**Dilin referent funksiyası**

Dilin bu funksiyasında obyektiv aləm haqqında informasiya, məlumat, müəyyən məntiqi məzmun ifadəetmə və s. xüsusiyyətlər ən səciyyəvi cəhətlər kimi götürülür. Bu xüsusiyyətlər idarəçilik sistemindən tutmuş təbiət təsvirinə qədər olan məsələlərin poetik dillə ifadəsini əhatə edir. Məsələn:

Ol bağların qara salxımları, üzümü olur,
Ol üzümü saqırlar, al şərabı olur,

Ol şərabdan içən əsrük olur,
Şərablıydım, tuymadım, nə söylədim, bilmədim
("Kitabi-Dədə Qorqud") .

Sıra dağlar, gen dərələr,
Ürək açan mənzərələr,
Ceyran qaçar, cüyür mələr,
Nə çoxdur oylağın sənin,
Aranın, yaylağın sənin
(S. Vurğun).

Təqdim edilən bəzi nümunələr bizə bir daha göstərir ki, dil fikrin libasıdır. "Nə olur-olsun, doğma dil doğmalığında qalır. Ürəkdən danışmaq istəsən, ağlına bir fransız sözü gəlməz. Əgər seçilmək istəyirsənsə, bu, başqa məsələ" (L. Tolstoy).

**Nəticə**

- Dil xalqın mədəniyyətini dəyərləndirən vasitədir.
- Dil kommunikativ funksiya daşıyıcısıdır.
- Dil insan təfəkkürünün formalaşması və ifadəsinə xidmət edən işarələr sistemidir.
- Dil ictimai-siyasi təcrübəni yaratmaq, ötürmək və mənimsəmək vasitəsi rolunu oynayır.
- Dil intellektual fəaliyyət vasitəsidir.
- İnsan dil vasitəsi ilə fikrini ifadə edir; başqasının fikirlərini öyrənir; qarşılıqlı anlaşma imkanı əldə edir.
- Dil dövlətin əsas atributlarındandır.
- Mədəniyyət evdirsə, dil həm evin, həm də bütün otaqların açarıdır. Dilsiz insan evsiz və şəxsiyyətsiz qalmış bir varlıq kimidir.
- Dil emotiv, apelyativ, konativ, referent kimi funksiyalar da daşıyır.

**Ədəbiyyat**

1. *Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu*. (2025). https://e-qanun.az
2. Azərtac. (16.07.2029). *Yeni kitab: Dilin elmi və estetik problemləri*. https://azertag.az
3. *Azərbaycan dili*. https://azerbaycandili.az
4. Hümmətova, R. (2021). *Ana dili-2*. ADPU.
5. Hüseynova, M. (2019). *Dilin elmi və estetik problemləri*. ADPU.
6. Xəlilov, B. (2017). *Müasir Azərbaycan dili.* Adiloğlu.
7. İsmayılova, T. (2018). *Səməd Vurğunun bədii yaradıcılığında dil məsələsi*. Dilçilik İnstitutunun əsərləri.
8. Kazımov, Q. (2010). *Müasir Azərbaycan dili*. Morfologiya. Elm və təhsil.
9. Qurbanov, A. (2019). *Müasir Azərbaycan ədəbi dili*. I c, 2 cilddə. AMEA.
10. Tanrıverdi, Ə. (2008). *Dilimiz, mənəviyyatımız.* Nurlan.